***ÜMUMPEDAQOJİ PROBLEMLƏR***
***ОБЩЕПЕДАГОГИЧЕСКИЕ ПРОБЛЕМЫ***
***GENERAL PROBLEMS of PEDAGOGY***

*UOT 37.01*

# MÜASİR ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN İBTİDAİ SİNİFLƏR ÜÇÜN "AZƏRBAYCAN DİLİ" DƏRSLIKLƏRI ÜZƏRİNDƏ MİLLİLİK NÖQTEYİ-NƏZƏRİNDƏN ARAŞDIRMA

**Səfa Etibar qızı Bədirova**
*Bakı Qızlar Universitetinin magistrantı*
**ORCİD:** 0009-0004-0148-178X
**E-mail:** sefabedirli11@gmail.com

***Açar sözlər:*** *mənəvi dəyərlər, Şifahi xalq ədəbiyyatı, atalar sözləri, xalq*
***Ключевые слова:*** *моральные ценности, устная народная литература, пословицы, люди*
***Key words:*** *moral values, ral folk literature, proverbs, people*

Müasir ümumtəhsil məktəblərinin ibtidai siniflər üçün "Azərbaycan dili" dərslikləri üzərində millilik nöqteyi-nəzərindən araşdırma apardıq. Araşdırmada məqsədimiz kitablarda Azərbaycan folklor mətnlərindən hansı səviyyədə istifadə olunmasını müəyyənləşdirmək idi.

Bugünkü elm adamlarının hər birinə öz təcrübəsindən məlumdur ki, içindən keçib gəldiyimiz ibtidai təhsildə ana dilinin tədrisində özək hissə əsasən milli folklor mətnlərindən ibarət olmuşdur. Bu, səbəbsiz deyil. Folklora yaddaş ədəbiyyatı da demək mümkündür. Yaddaşlardan yaddaşlara ötürülərək cilalana-cilalana bugünümüzədək gəlmiş folklor mətnləri təlim-tədris işində keyfiyyətli nəticə əldə edilməsini xeyli asanlaşdırır. Folklorla təmas uşaqların canlı xalq dilinə qırılmaz tellərlə bağlanmasına, ana dilinin imkanları ilə, eləcə də xalq həyatının bütün sahələri ilə yaxından tanış olmasına şərait yaradır. Xalqa aid bütün biliklər tam dolğunluğu ilə folklorda öz əksini tapmışdır. Ona görə də uşaqlara bu xalqın kimliyini anlatmaqda xalq ədəbiyyatı ən uğurlu vasitədir. Təlim-tərbiyə işində folklor mətnlərinə önəm verilməsinin digər mühüm səbəbləri tələffüzün asanlığı, oynaq ritm və ahəngə malik olması, səs gözəlliyi, uşaqların buna biganə qala bilməməsi, mətnin yadda saxlanılmasının asan olmasıdır. Folklor bu mənada bəxti gətirmiş yaradıcılıq nümunəsidir. Çünki o, yalnız sevgi və könüllülük prinsipi əsasında yaşayır və yadda qalır. Bu ədəbiyyatın şanslı olmasının bir səbəbi də onun yaddaşlarda, təfəkkürdə ilkinliyidir. Hər kəsin dünyaya gəldiyi ilk gündən eşitdiyi laylalarla folklorla təması başlayır, daha sonra oxşamalar, dilaçma dövründə sanamalar, düzgülər və s. beləcə bu səs ruhunun mayasına çevrilir, mənəviyyatına hopur. Deməli, bu, hər kəsin doğma ədəbiyyatıdır.

Təhlillərimizi, əsasən, I sinif "Azərbaycan dili" dərsliyi üzərində apardıq və burada söylənilən fikirlər həmin dərslik haqqındadır. Kitab yeddi bölmədən ibarətdir. Bölmələrin adları mündəricatda göstərilməsə də, dərslikdə yeri gəldikcə qeyd olunmuşdur. Əsas mövzu kimi başlıqlarda milli folklor nümunələrinə rast gəlmirik. Amma demək olmaz ki, burada Azərbaycan folklorundan istifadə olunmamışdır. Dərsliyin 60-cı, 78-ci və 140-cı səhifələrində tapmaca, 105-ci səhifədə üzündən köçürmə üçün bayatı, 64-cü, 73-cü, 89-cu, 133-cü, 146-cı, 157-ci sə-

hifələrdə isə atalar sözləri verilmişdir. Lakin bunlar çalışmaların tərkibində üzərində müəyyən əməliyyatlar aparmaq üçün əsas mövzuya əlavə kimi verilmişdir.

Dərsliyin altıncı bölməsi "Nağıllar aləmində" adlanır. Burada verilən ilk mətn Nəbi Xəzrinin "Nənəm nağıl danışır" şeiridir. Bölmədə həmçinin, Reyhan Yusifqızının "Aysu" əsərindən "Balaca şahzadə" adlı bir hissə, Həbibə Zeynalovanın "Xoruzun neçə rəngi var" və Zahid Xəlilin "Güzgü" hekayələri, Xanımana Əlibəylinin "Hara gedirsən axşam", Nəbi Xəzrinin "Niyə daşmayır", Dilrüba Nürəddinqızının "Dovşan" və Zahid Xəlilin "Hesab" şeirləri, Çingiz Tağızadənin "Qarı nənənin kələyi", Vladimir Suteyevin "Ağac – hər dərdə əlac" hekayələri verilmişdir ki, bunlardan heç biri folklor mətni – nağıl deyil. Amma bu bölmədə folklor janrlarına aid mətnlər də verilmişdir. Həmin mətnlərə millilik baxımından nəzər salaq: "Zolaqlı burunduk" (əfsanə), "Nə üçün pişik yeməkdən sonra yuyunur" (Litva nağılı), "İtlə insan necə dost oldular" (mordva xalq nağılı), "Niyə ayın donu yoxdur" (serb nağılı), "Ayı və kəndli" (rus xalq nağılı), "Nəzakətli dovşan" (Meksika nağılı), "Ayı və dovşan" (təmsil).

Axı ana dilinin zənginliklərini, şirinliyini mənimsətməkdə Azərbaycan folklor mətnləri əvəzsiz mənbədir. Şifahi xalq ədəbiyyatı nümunələri ilə uşaqlara milli-mənəvi dəyərlər aşılamaq, azərbaycançılıq məfkurəsi ruhunda vətəndaş yetişdirmək daha asandır.

**Problemin aktuallığı.** Müasir ümumtəhsil məktəblərinin ibtidai siniflərində Azərbaycan dili dərslikləri vasitəsilə uşaqlara milli-mənəvi dəyərlərin aşılanması böyük əhəmiyyət kəsb edir çünki XXI əsrdə qloballaşma prosesi nəticəsində uşaqlarda milli kimlik hissi zəifləyə bilər dərsliklərin məzmununda millilik prinsiplərinin düzgün tətbiqi şagirdlərin vətənpərvərlik və azərbaycançılıq ruhunda tərbiyə olunmasına imkan yaradır və bu baxımdan dərsliklərin milli-mənəvi dəyərlərin tədrisində rolu aktuallığını qoruyur.

**Problemin elmi yeniliyi.** Araşdırmanın elmi yeniliyi odur ki, iş ibtidai siniflər üçün Azərbaycan dili dərsliklərinin məzmununda milli-mənəvi dəyərlərin sistemli təhlilini təqdim edir və həm mətn, həm də vizual elementlərdə millilik aspektini qiymətləndirir, əvvəlki tədqiqatlardan fərqli olaraq dərsliklərin uşaqların milli kimlik və mədəni şüurunun formalaşmasındakı rolunu nəzəri və praktik baxımdan göstərir, eləcə də müəllimlər və dərslik tərtibatçıları üçün elmi əsaslı tövsiyələr təqdim etməklə təhsil prosesinə yenilik gətirir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Araşdırmanın praktik əhəmiyyəti odur ki, nəticələr müəllimlərə dərs prosesində Azərbaycan dili dərsliklərindən istifadə edərək şagirdlərin milli-mənəvi dəyərlər əsasında tərbiyə olunmasını təşkil etməyə kömək edir və dərsliklərin məzmununda millilik elementlərinin necə tətbiq ediləcəyini göstərir, tətbiqi isə ondan ibarətdir ki, müəllimlər dərs planlarını və təlim üsullarını bu tövsiyələrə uyğun quraraq uşaqların vətənpərvərlik, milli kimlik və mədəniyyət duyğularını inkişaf etdirə, dərsliklərin milli-mənəvi potensialını effektiv şəkildə istifadə edə bilərlər.

### Ədəbiyyat


1. Ağayev Ə.Ə. Təlim prosesi: ənənə və müasirlik. Bakı, 2006.
2. Azərbaycan Respublikasının ümumi təhsil müəssisələri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulumr), Bakı, 2023.

3. https://www.trims.edu.az/noduploads/book/quot-azarbaycan-dili-quot-tadris-dili-fanni-uzra-4-cu-sinif-ucun-darslik-1-ci-hissa-1736834841-675.pdf
4. Atalar sözü. Bakı: Öndər, 2004, s. 264.
5. Azərbaycan dili: 3-cü sinif üçün dərslik. Bakı, 2022.
6. Vəliyev V. Azərbaycan folkloru. Bakı: Maarif, 1985.
7. Nəbiyev A. Azərbaycan folklorunun janrları. Bakı: ADU-nun nəşri, 1983.
8. Nəbiyev A. Azərbaycan uşaq folkloru. Bakı: Elm, 2000.

**S.E. Bədirova**

**Müasir ümumtəhsil məktəblərinin ibtidai siniflər üçün "Azərbaycan dili" dərslikləri üzərində millilik nöqteyi-nəzərindən araşdırma**

**Xülasə**

Müasir ümumtəhsil məktəblərinin ibtidai siniflər üçün hazırlanmış "Azərbaycan dili" dərslikləri milli dəyərlərin və folklor elementlərinin uşaqlara ötürülməsində əhəmiyyətli vasitə kimi çıxış edir. Dərsliklərdə dilin zənginliyi, xalqın mədəniyyətinə dair nümunələr və ənənələr əks olunaraq şagirdlərin milli şüur və kimlik hissinin formalaşmasına dəstək olur. Eyni zamanda, bu dərsliklər şagirdlərin ana dilində kommunikasiya bacarıqlarını inkişaf etdirməklə yanaşı, onların mənəvi və əxlaqi dəyərlərlə tanış olmasını təmin edir. Nəticədə, dərsliklər milliliyin tədris prosesinə inteqrasiyasını təmin edən mühüm tədris vasitəsi kimi qiymətləndirilir.

**С.Е. Бадирова**

**Анализ учебников «Азербайджанский язык» для начальных классов современных общеобразовательных школ с точки зрения национальной идентичности**

**Резюме**

Учебники «Азербайджанского языка», подготовленные для начальных классов современных общеобразовательных школ, являются важным инструментом передачи детям национальных ценностей и элементов фольклора. Учебники отражают богатство языка, примеры и традиции народной культуры, способствуют формированию у учащихся национального самосознания и чувства идентичности. В то же время, эти учебники, помимо развития у учащихся навыков общения на родном языке, обеспечивают их знакомство с духовными и нравственными ценностями. В результате учебники оцениваются как важный учебный инструмент, обеспечивающий интеграцию национальной идентичности в образовательный процесс.

**S.E. Badirova**

**An analysis of “Azerbaijani Language” textbooks for primary grades in modern general education schools from the perspective of national identity**

**Summary**

“Azerbaijani language” textbooks prepared for primary grades of modern comprehensive schools act as an important tool in transmitting national values and folklore elements to children. The textbooks reflect the richness of the language, examples and traditions of the people's culture, and support the formation of students' national consciousness and sense of identity. At the same time, these textbooks, in addition to developing students' communication skills in their native language, ensure their familiarity with spiritual and moral values. As a result, textbooks are evaluated as an important teaching tool that ensures the integration of nationality into the educational process.

**Redaksiyaya daxil olub:** 29.04.2026